**Son illər Muzey Mərkəzinin fəaliyyətində bir dirçəliş, canlanma duyulur. Burada bir-birindən maraqlı tədbirlər keçirilir, sərgilər gerçəkləşdirilir. Tanınmış fırça ustası, respublikanın əməkdar rəssamı Ənvər Əsgərovun anadan olmasının 70 illiyi münasibətilə burada təşkil olunan sərgi də bu qəbildəndir.**

# Yubiley sərgisi



Ekspozisiyada rəssamın son illərdə yaratdığı yeni, indiyədək geniş tamaşaçılara təqdim olunmamış əsərləri nümayiş etdirilmişdir. Sərgini bir növ rəssamın tamaşaçılar qarşısında yaradıcılıq hesabatı kimi qiymətləndirmək də olar.

Ə.Əsgərov ilk professional təhsilini Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində Barat Maratlı, Kamil Xanlarov və Lətif Feyzullayev kimi tanınmış rəssamlardan almışdır. Daha sonra Sankt-Peterburqdakı V.Muxina adına Ali Sənaye Rəssamlığı İnstitutunu bitirmişdir. 1968-ci ildən Azərbaycan və SSRİ Rəssamlar İttifaqının üzvüdür. 1993-cü ildə Rəssamlar İttifaqı tərəfindən Soltan Məhəmməd mükafatına layiq görülmüşdür. Ə.Əsgərov 1994 və 2003-cü illərdə Bakıda fərdi sərgilərini təşkil etmişdir. Onun əsərləri 1998-ci ildə Vaşinqtonda keçirilən "World bank art" adlı sərgidə nümayiş etdirilmiş və bir neçə əsəri ABŞ kolleksiyaçıları tərəfindən alınmışdır.

1967-ci ildə ilk dəfə olaraq Ə.Əsgərov "Borular" adlı əsəri ilə sərgidə iştirak etmişdir. Bu dövr ərzində onun yaradıcılığı zənginləşmiş, özünəməxsus cəhətləri ilə başqalarından fərqlənmişdir. Bir neçə on il bundan əvvələ qədər monumental sənaye kompozisiyalarına üstünlük verən rəssam sonralar kamera tipli həndəsi natürmortlar çəkməyə başlamış, az sonra isə formal baxımdan çox sadə olan bu əsərlər op-art üslubunda işlənmiş rəsmlərlə əvəz edilmişdir.

Sənətdə öz yerini, yaradıcılıq yolu və istiqamətini tapmış rəssamın əsərlərinə tamaşa edərkən, düşünürsən ki, onun fantaziyasının həddi-hüdudu yoxdur.

Tünd yaşıl rəngli meşələrin təsvirində nə isə mistik bir məqam duyulur. Bu lövhələr nə qədər real olsa da, onları realist üsluba yalnız şərti mənada aid etmək olar. Onun əsərlərinin təbiiliyi tamaşaçıya sanki təzə-tər yarpaqların qoxusunu çatdırır. Adama elə gəlir ki, bu qoxu insana fiziki mənada təsir göstərir. Rəssamın palitrasında əsasən təbiət rəngi sayılan yaşıl rəngin müxtəlif çalarları üstünlük təşkil edir. Rənglər onun tablolarında bir-biri ilə üzvü şəkildə əlaqələndirilir. Sanki onlar rəssam tərəfindən deyil, təbiətin özü tərəfindən işlənmişdir. Özünəməxsus yaradıcılıq üslubu və orijinal tərzdə işlənmiş tabloları ilə rəssam bu illər ərzində tamaşaçıların və sənətsevərlərin marağını özünə cəlb etmişdir.

O, hansı zamanda yaşamasından asılı olmayaraq daim öz sənət ideallarına sadiq qalan insan kimi, milli incəsənətimizin zəngin xəzinəsinə öz töhfələrini verməkdə davam edir.

Ə.Əsgərovun səmərəli bədii yaradıcılıq fəaliyyəti Azərbaycan Dövləti tərəfindən yüksək qiymətləndirilmiş və o, 2000-ci ildə Əməkdar Rəssam fəxri adına layiq görülmüşdür. 2009-cu ildə "Azerbaijan culturalscapes" layihəsi çərçivəsində Nazirlik tərəfindən İsveçrənin Bazel şəhərində keçirilmiş "Baku Unlimited" adlı sərgidə Ənvər Əsgərovun əsərləri də uğurla nümayiş etdirilmişdir.

Onun əsərləri Rusiya Mədəniyyət Nazirliyinin fondunda, Azərbaycan Dövlət İncəsənət Muzeyində, Dövlət Rəsm Qalereyasında və bir çox xarici ölkələrdəki şəxsi kolleksiyalarda saxlanılır.

**Tural**